**UOT:78.**

# S.V.RAXMANİNOVUN FORTEPİANO ƏSƏRLƏRİDƏN MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ İSTİFADƏ

***Hacıyeva Mehriban Şövkət qızı***
***Gəncə Dövlət Universiteti***
***mehriban.hajıyeva@ mail.ru***

**Xülasə**: *Məqalədə Sergey Vasilyeviç Raxmaninovun fortepiano musiqisindən məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafında istifadənin imkan və yolları ətraflı öyrənilmişdir.*

*Dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələrindən olan Sergey Vasilyeviç Raxmaninovunfortepiano musiqisi öz məzmununa, dərin humanist təbiətinə görə incə emosional və melodik səciyyə daşıyır.**Dövrünün ən gözəl lirik bəstəkarlarından olan Raxmaninovun əsərlərində Şərq obrazları da geniş yer tutur. Bəstəkarın yaradıcılıq irsinə fortepiano və orkestr üçün üçkonsert, violonçel və fortepiano üçün 2 pyes, fortepiano üçün pyes – fantaziya, 2 fortepiano üçün süita, Prelüdlər, Etüd-şəkillər və s. əsərlər daxildir.***

*Musiqi dərslərində S.V.Raxmaninovun fortepiano musiqidən istifadə olunması üçün geniş imkanlar vardır və bu məktəblilərin musiqi tərbiyəsinində mühüm əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** bəstəkar,fortepiano, musiqi, məktəb, şagird .

**Ключевые слова:**композитор, фортепиано,музыка, школа, образование.

**Key Word**:coumposer,piano, school, education, music.

Dünya musiqi mədəniyyətinin tanınmış nümayəndələrinin yaradıcılığının öyrənilməsi müasr musiqi-pedaqoji elminin aktual problemlərindəndir.

Görkəmli rus bəstəkarı, pianoçu və dirijor Sergey Vasilyeviç Raxmaninovun (1873-1943) adı bütün mədəniyyət aləmində məşhurdur. O, dünyanın ən istedadlı pianoçu və dirijorlarından biri, orijinal musiqi əsərlərinin müəllifi, özünün və başqa bəstəkarların əsərlərinin misilsiz ifaçısı kimi tanınmışdır.

S.V.Raxmaninovun fortepiano yaradıcılığı həm rus musiqi klassikasına, həm də dünya musiqi xəzinəsinə daxildir.Bəstəkarın fortepiano əsərləri tanınımış pianoçuların konsert repertuarına daxil olmuş, dəfələrlə nəşr edilmişdir.

Sergey Vasileviç Raxmaninov yaşayıb-yaratdığı dövr, onun yaradıcılığının çiçəklənməsi Rusiyada ən ağır sarsıntılar, böyük sosial dəyişikliklər dövrünə təsadüf edir və Rusiyada inqilabların başlanması ilə bir çox görkəmli sənət xadimləri kimi onun həyatında da həyəcanlı illər başlanır. Bir çox yaradıcı insanlar kimi, Raxmaninov siyasətdən, dövlət çevrilişlərindən uzaq adam idi. O, vətən üçün narahatçılıq keçirsə də, 47 yaşında onu birdəfəlik tərk etmək məcburiyyətində qalır. İkinci Dünya müharibəsi illərində Vətəni üçün narahat olan bəstəkar ABŞ-da təşkil etdiyi bir neçə konsertdən yığılan pul vəsaitini alman faşizmi ilə mübarizə aparan ordunun fonduna köçürür.

Təbiətən lirik olan Raxmaninov öz musiqisində lirik əhval-ruhiyyənin və lirik obrazların çox zəngin və müxtəlif çalarlarını göstərmişdir. Onun musiqisində ən incə, xəfif duyğulardan tutmuş, ehtiraslı, alovlu patetikaya qədər ən müxtəlif lirik boyalara rast gəlirik. Bununla belə, Raxmaninov heç vaxt öz subyektiv aləminə qapılmır, əksinə, sanki öz ürəyini geniş açaraq, düşüncə və duyğularını, həyəcan və yaşantılarını həyəcanla bölüşür.

Tədqiqatçı R.Xeyrullayeva “Sergey Raxmaninovun fortepiano əsərlərinin Azərbaycan ifaçılıq məktəbinə təsiri” adlı dissertasiya işində yazır:“S.V.Raxmaninovun 2 yanvar 1930-cu il tarixində O.Respiqiyə yazdığı məktubu saxlanılmışdır. Məktubda bəstəkar müəllif düşüncəsinə aid sirlərə aydınlıq gətirərək proqramı şərh edir: etüd-lövhə a-moll op.39 №2 – dəniz və qağayılar (Berklinin rəsmindən təsirlənən “Ölülər adası” simfonik poemasına oxşarlıq), etüd-lövhə op.39 a-moll №6 – “Qırmızı Papaq və Boz qurd”, etüd-lövhə Es-dur op.33 № 7 – yarmarka səhnəsi, etüd-lövhə D-dur op.39 № 9 – “Şərq bazarı”, etüd-lövhə c-

moll op.39 № 7 – matəm marşı (bəstəkar bu etüdün təhlilini vermişdir). 1930-cu ildə Kusevitskinin sifarişi ilə O.Respiqi bu etüd-lövhələri simfonik orkestr üçün alətləşdirdi. Raxmaninovun etüdlərini dinləyərkən əmin oluruq ki, o, orkestr miqyasında düşünür və onu dərindən hiss edirdi" [4.33].

Məhz bu fikirləri əsas tutaraq S.Raxmaninovun fortepiano əsərlərinə məktəblilərin marağını artırmaq vacibdir. Çünki musiqi dərslərində musiqi sahəsində ilk addımlar atılır və şagirdin musiqi zövqünün formalaşmasına uşaqların tanış olduğu nağıl qəhrəmanları vasitəsilə təsir göstərmək əhəmiyyətlidir. Elə uşaq ola bilər ki, gələcəkdə musiqini özünə peşə seçsin, prfessional musiqiçi kimi yetişsin. Buna görə də sözsüz ki, şagirdin yetişməsində sənətə vəsiqə verən musiqi müəlliminin üzərinə ciddi məsuliyyət düşür.

Dahi bəstəkar Üzeyir Hacıbəyliningənc nəslin musiqi dünyagörüşünün daha da artırılması üçün tövsiyə etmişdir ki, "Balalarımıza təkcə xalq musiqimizi deyil, eyni zamanda dünya klassik musiqi nümunələrini dinləməyi öyrətmək lazımdır" [1.20].

Üzeyir bəyin bu fikrini əsas tutaraqşagirdlərin dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin yaradıcılığı ilə yaxından tanış olması üçün musiqi dərslərində Azərbaycan musiqisi ilə bərabər müntəzəm olaraq dünya klassikləri haqqında məlumatların verilməsi məqsədəuyğundur. Bu baxımdan S.V.Raxmaninovun fortepiano əsərləri ilə şagirdləri tanış etmək üçün müxtəlif vasitələrdən istifadə etmək olar. Bəstəkarın əsərlərində özünü aydın göstər Şərq musiqisi elementləri vardır və həmin əsərlərlə şagirdləri tanış edərkən məhz bu bağlılığınvurğulanması, müvafiq musiqi nümunələrinin dinlənilməsi şagirdlərin musiqi tərbiyəsi və musiqi inkişafına müsbət təsir göstərir.

S.Raxmaninovun həyat və yaradıcılığı haqqında məlumat verən müəllim bəstəkarın XX əsrin əvvəllərində 3 dəfə (1911, 1913 və 1915-ci illərdə) Bakıda konsert proqramı ilə çıxış etdiyini qeyd etməklə şagirdlərin marağını mövzuya cəlb edir.

Bundan başqa bəstəkarın əsərlərinin tanınmış Azərbaycanpianoçuları Fərhad Bədələbəyli, Zöhrab Adıgözəlzadə, Murad Adıgözəlzadənin və başqalarının ifasında dinləməklə şagirdlər eyni zamanda bu ifaçılarla da tanış olurlar. İfa ustalığı nə qədər yüksək olsa, musiqinin təsiri və cəlbediciliyi də bir o qədər artıq olur.

Qeyd etməliyik ki, S.Raxmaninovun bəzi prelüdiyaları Azərbaycan milli məqamlarına bağlılığı ilə dinləyicini heyran edir. Tar alətinin səslənməsini xatırladan sanki, insan ürəyinin hərarəti ilə qızınmış və qəlbdən axıb gələn melodik ibarələr qeyri-adi təbiiliklə və sadəliklə səslənir. Bu əsərlərdə bəstəkarın musiqisinin milli rus və Şərq mənbələrilə, xalq mahnıları ilə, zəng səsləri ilə, qədim rus ənənələri iə bağlı olan dini oxumalarla, Şərq melodiyaları ilə, Qafqaz ritmləri ilə Raxmaninovsayağı, öxünəməxsus əlaqəsi dərin ifadəsini tapmışdır.

S.V.Raxmaninovun dünya musiqi xəzinəsinə daxil olan fortepiano əsərlərinin (prelüdləri, musiqi anları, etüd-lövhələri, fortepiano və orkestr üçün konsertləri) Azərbaycan musiqi mədəniyyəti ilə əlaqəli tədrisi (Azərbaycan folkloru, milli məqaqmlar, xalq çalğı alətlərinin tembrləri və s.) məktəblilərin musiqi qavrama qabiliyyətinin inkişafına qüvvətli təsir göstərir. Bəstəkarın əsərlərindəki melodiyaların oxunması onların yadda qalmasına, şagirdlərin musiqi qavrama qabiliyyətinin inkişafına şərait yaradır.

Bununla əlaqədar dinlədiyi musiqi əsərin obraz-məzmununu sözlə ifadə etmək, musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirmək bacarığının məktəblilərə aşılanması üçün musiqi müəllimi ardıcıl, mütəmadi, məqsədyönlü iş aparmalıdır.

***Ədəbiyyat***

1. Hacıbəyli Ü. "Seçilmiş əsərləri". I cild, Bakı, 2004.
2. Qurbanəliyeva S. "Şəxsiyyət və musiqi". Bakı, 2010.
3. Rəcəbov O., Hidayətova F. "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası". Bakı, 2013.

4. Xeyrullayeva R. “Sergey Raxmaninovun fortepiano əsərlərinin Azərbaycan ifaçılıq məktəbinə təsiri”. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2018.

**ИСПОЛЬЗОВАНИЕ ФОРТЕПИАННЫХ ПРОИЗВИДЕНИЙ СЕРГЕЯ ВАСИЛЬЕВИЧА РАХМАНИНОВА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ**

***Гаджиева Мехрибан Шовкет кызы***

***Резюме***

Использование фортепианных произведений выдающего русского композитора Сергея Васильевича Рахманинова в учебном процессе общеобразовательных школимеет важную роль вмузыкальном воспитании школьников.

**USE OF PİANO WORKS BY SERGEY VASİLYEVİCH RACHMANİNOFF İN THE MUSİCAL EDUCATİON**

***Hajiyeva Mehriban Shovkat***

***Summary***

The well-known Russian composer S.V.Rahmaninov use of piano music in the process of teaching, plays in important role in the development of the music education of the schoolchildren.

***Rəyçi: GDU-nun “Musiqi fənləri” kafedrasının baş müəllimi S.Həsənova***
***“Musiqi fənləri” kafedrasının 11.03.2021-ci il tarixli iclasının 09 saylı protokolu***
***Daxil olduğu tarix 24 aprel 2021-ci il***

**UOT:78.**

# N. A. RİMSKİ-KORSAKOVUN YARADICILIĞININ ƏSAS XÜSUSİYƏTLƏRİ

***Haqverdiyeva Nərgiz Əli qızı***
***Gəncə Dövlət Universiteti***
***nargizhaqverdiyeva.@gmail.com***

**Xülasə:** *Görkəmli rus bəstəkarı Nikolay Andreyeviç Rimski-Korsakov (1844-1908) bəstəkar, dirijor, pedaqoq, nəzəriyyəçi kimi dünya musiqi mədəniyyətində özünəməxsus yer tutur. Məqalədə bəstəkarın yaradıcılığının mərhələləri, janr və mövzu dairəsi, bəstəkarın yaradıcılığının əsas xüsusiyyətləri araşdırılmışdır.*

*N.A.Rimski-Korsakovun yaradıcılıq irsi çox zəngin və rəngarəngdir.Nağıl mövzularına müraciət, opera və simfonik əsərlərində özünü aydın göstərən xalq mahnı elementləri, təbiətin poetik təsviri bəstəkarın üslub xüsusiyyətlərini səciyyələndirən cəhətlərdəndir. Bəstəkar simfonik musiqidə yeni janr-simfonik nağıl janrını yaratmışdır. M.Qlinkanin ənənələrini davam etdirən, bəstəkarın yaradıcılığı çoxşaxəlidir. O, 15 opera, 3 simfoniya, 7 süita, 3 kantata, fortepiano və orkestr üçün konsert, xor əsərləri, 79 romans, xalq mahnılarının işləmələri, 100 rus xalq mahnıları məcmüəsi və s. kimi əsərlər yaratmışdır. N.A.Rimski-Korsakov 40 ilə yaxın (1871-1908) pedaqoji fəaliyyəti dövründə 200-dən artıq bəstəkar, dirijor, musiqişünas yetişdirmişdir.*

*N.A.Rismki-Korsakov milli musiqinin tərəqqisi sahəsindəki xidmətləri və qazandıqları nailiyyətlər rus və Qərbi Avropa musiqisinin inkişafına ciddi təsir göstərmişdir. N.A.Rimski-Korsakovun yaradıcılığı gələcək nəsillər üçün dəyərli xəzinədir.*

**Açar sözlər:** N.A.Rimski-Korsakov, bəstəkar, yaradıcılıq,rus, musiqi, əsər